# Yeni reallıqlar regionun mənzərəsini dəyişir



***İndi azad edilmiş torpaqlara ezam olunan insanlar və xarici qonaqlar hər şeyi öz gözləri ilə görürlər. Biz bütün azad edilmiş torpaqları bərpa edəcəyik. Sadəcə olaraq, biz erməni vəhşiliyini heç vaxt unutmamalıyıq. Biz çox xeyirxah xalqıq. Bu, həm bizim üstünlüyümüzdür, eyni zamanda, qarşıda vəhşi olanda, xeyirxah olmaq olmaz. Onlara elə cavab verməliyik ki, bunu öz tarixi yaddaşlarında əbədi saxlasınlar, bu, onların yaddaşlarından heç vaxt silinməsin və silinməyəcək. Bu gün orada baş qaldıran bəzi revanşist qüvvələr də bilməlidirlər, "dəmir yumruq" yerindədir, lazım olarsa, bunların başını elə əzərik və buna əbədi son qoyulacaq***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

***Dünyamızda indiyə qədər baş verən bütün müharibələr öz daxilində ilkin bir səbəbi və savaşlardan sonra ortaya çıxan nəticələri ehtiva edir. Bu nəticələr çox vaxt ikimərhələli olur. Belə ki, ilkin mərhələdə ölkələrin və ya orduların nə qədər insan itirdiyi, hansı miqyasda zərərə uğradığı ön plana çıxır. İkinci mərhələdə isə müharibədən sonrakı dövrdə bölgədə yaranan vəziyyət və yeniliklər diqqəti daha çox cəlb edir.***

II Qarabağ müharibəsi də istisna deyil. Səbəb bəlli idi. Azərbaycan öz haqqı olan torpaqları geri istəyirdi. Biz otuz ilə yaxın müddət ərzində torpaqlarımızın işğaldan azad edilməsini gözləmişik. Prezident İlham Əliyevin dediyi kimi, biz əvvəllər, hər kəsi özümüz kimi dürüst bilirdik. İnanırdıq ki, torpaqlarımızı danışıqlar yolu ilə geri qaytara bilərik. Əslində, danışıqlar prosesinin gedişatı da zaman-zaman inamımızın boşuna olmadığını göstərirdi. Lakin son illərdə, bu prosesin sadəcə vaxt qazanmaq üçün davam etdiyini, Ermənistanın və onun havadarlarının bir qarış torpağı belə geri qaytarmaq niyyətində olmadığını anladıq.

Dövlətimizin başçısı bu qarışıq dövr haqqında danışarkən bildirir ki, biz bu illər ərzində müharibəyə hazırlaşdığımızı gizlətmirik. Ermənistanın torpaqlarımızı qaytarmaq niyyəti yox idi. Belə olan halda nə etməliydik? Otuz il də gözləməli idik ki, bu torpaqlarda bir qədər də möhkəmlənsinlər? Qəribədir, işğal etdikləri torpaqlarda nə özləri yaşayır, nə də onu geri qaytarırdılar. Ekspertlər bu məsələni müzakirə edəndə belə bir ortaq fikir formalaşır ki, ermənilər özləri də yaxşı bilirdilər ki, gec-tez bu ərazilərdən çıxmalı olacaqlar. Ona görə də, nə bir daşı daş üstünə qoyur, nə də yaşamaq üçün hansısa bir addım atırdılar.

Beləliklə, müharibənin səbəbi aydın oldu. Nəticə isə əvvəldə qeyd edildiyi kimi, iki hissəyə bölünür. Ölkəmiz 4 minə yaxın şəhid verdi. Pandemiya ilə yanaşı, müharibə də ölkə iqtisadiyyatına ziyan vurdu və Azərbaycan 30 il əvvəl itirdiyi torpaqları düşmənin başını əzə-əzə geri qaytardı. Bu, II Qarabağ müharibəsinin Azərbaycan üçün ilk nəticəsidir. Biz xalq olaraq xoşbəxt idik, bəziləri gələcəyi düşünmədən hər şeyin bitdiyini, artıq missiyamızın tamamlandığını düşünürdü. Prezident İlham Əliyev isə xalqa müraciətində bildirdi ki, hələ görüləcək işlər qabaqdadır və biz bütün bu öhdəlikləri yerinə yetirməmiş öz işimizi tamamlamış saymayacağıq.

Müharibə bitdi və təkcə bizim üçün deyil, ümumilikdə, region üçün yeni reallıqlar dövrü başladı. Bu reallıqlardan birincisi və ən mühümü Azərbaycanın qalib dövlət olmasıdır. Bu əsas və danılmaz faktdır. Azərbaycan qalib dövlət kimi, işğaldan azad etdiyi torpaqları bərpa etməyə, bu əraziləri insanlar üçün yaşamağa hazır vəziyyətə gətirmək missiyasına start verdi ki, bu proses üçün respublikanın qaynaqlarının böyük hissəsi səfərbər edildi.

Əslində, prosesin bu qədər tez başlanması çoxları üçün gözlənilməz oldu. Belə ki, Azərbaycan iqtisadiyyatı dünyanın bir çox ölkəsindən fərqli olaraq təkcə pandemiya ilə yox, həm də müharibənin vurduğu zərərlə mübarizə aparırdı. Boşboğaz adam üçün danışmağa nə var ki? Dünyanın, hətta supergücləri belə tək pandemiya ilə bacara bilməyərkən, ölkə iqtisadiyyatımız koronavirusdan ən az zərər görən iqtisadiyyatlardan biri oldu. Vaxtında və böyük həssaslıqla görülən tədbirlər xəstəliyin sürətli yayılmasının qarşısını aldı və xalqımızın səbr etməli olduğu tək şey uzunmüddətli qapanmalar oldu.

Hələ üstəlik, dövlət iqtisadiyyatına ən azı koronavirus qədər ziyan verən ikinci bir parazitimiz var idi. Biz isə nəinki müharibə bitəndən sonra, hətta müharibə davam edərkən, azad edilmiş və təhlükəsizliyi təmin edilmiş yerlərdə ilkin bərpa işlərinə başlamışdıq. Həm xarici media təşkilatlarının nümayəndələri, həm də şəhərsalma sahəsində ixtisaslaşmış təcrübəli şirkətlər Azərbaycanda davam edən bərpa-quruculuq işlərini yüksək qiymətləndirir, bunu, dünya təcrübəsində nadir uğurlardan biri olaraq adlandırırlar.

Bütün bunlar, Azərbaycanın öz imkanları, daxili resursları sayəsində həyata keçirilən layihələrdir. Biz tarixi ədaləti də, torpaqlarımızı da öz gücümüzə bərpa etmişik və etməyə davam edirik. Azərbaycan xalqı üçün ən böyük xoşbəxtlik də məhz budur. Heç kimin yanında gözümüz kölgəli deyil, qorxacağımız, çəkinəcəyimiz, görəndə yolumuzu dəyişəcəyimiz kimsə yoxdur. Prezidentimiz də çıxışları zamanı bu məqamı xüsusi vurğulayır. Qeyd edir ki, müharibə üçün bizə sadəcə siyasi yox, iqtisadi müstəqillik də lazım idi. Sevindirici haldır ki, biz hər ikisini də əldə etdik və öz gücümüz hesabına torpaqlarımız işğaldan azad edildi.

Yaranan reallıqların sonrakı mərhələsi isə Cənubi Qafqazda və ümumilikdə, regionda yaranan yeni perspektivlər və bu perspektivlərdən istifadə etmək imkanlarıdır. Məlum olduğu kimi, II Qarabağ müharibəsini bitirən Üçtərəfli Bəyanatın şərtlərinə uyğun olaraq, bölgədə kommunikasiyalar açılmalı, nəqliyyat və logistika infrastrukturu yaradılmalı, ticarət xətləri istifadəyə verilməli idi. Azərbaycan ilk gündən dövlətin rəsmi sözünə, Prezidentin imzasına və müqavilənin şərtlərinə uyğun olaraq işlərə başladı və qeyd edilən istiqamətlərdə layihələrə start verildi. Lakin hər zaman olduğu kimi, qarşı tərəf yenə verdiyi sözə xilaf çıxdı, vaxt qazanmaq, bəlkə nəyisə dəyişdirmək ümidi ilə təxribatlarına davam etdi.

Ermənistanın daxili məsələlərindəki xaos onun xarici siyasətinə də sıçrayır, verdiyi sözlərə əməl etməməsinə gətirib çıxarırdı. Belə ki, ölkədə hər yerindən duran ayrı bir avaz oxuyur, hər kəs öz dediyinin doğru olduğuna xalqı inandırmağa çalışırdı. Hələ utanmadan revanşistlərin də sayı az deyildi. Bütün bu qarışıqlıqdan baş çıxara bilməyən Ermənistanın rəhbər şəxsləri külək hansı tərəfdən əssə o tərəfə keçir, hər gün fərqli bəyanatlarla həm erməni xalqının, həm də dünya ictimaiyyətinin beynini qarışdırırdılar. Əminliklə söyləmək olar ki, onların bir çoxu heç özü də bilmir ki, nə istəyir.

Qəribədir, ermənilər və onların havadarları, bu qədər fakta-dəlilə baxmayaraq, hələ də zaman-zaman haqlı olduqlarını iddia edirlər. Otuz ildir işğal etdikləri torpaqlarda törətdikləri vəhşiliklərdən utanmır, hələ burada bərpa-quruculuq işləri aparan Azərbaycana mane olmağa da çalışırlar. Mina xəritələrini vermir, vaxtaşırı atəşkəsi pozur, təxribatlar törədir və siyasi müstəvidə də könül bulandırmağa davam edirlər.

Hələ, bu, azmış kimi, 30 il heç bir işə yaramayan, əməkdaşlarının yeyib-içib Avropanı və dünyanı gəzdiyi, indi artıq tarixin tozlu səhifələrinə qarışan Minsk qrupu adlanan keçmiş qurumu dirçəltmək, ona yeni missiyalar yükləmək istəyirlər. Üstəlik, bunu etmək istəyən təkcə ermənilər deyil, erməni lobbisinin bəslədiyi bəzi haypərəstlərdir. Əslində, II Qarabağ müharibəsi təkcə Ermənistanın deyil, elə bu gərəksiz qurumun da məğlubiyyəti idi. İndi bunlara deyən lazımdır ki, ay balam, bizdən nə istəyirsiniz? Minsk qrupu adlı qrup nə işə yarayırdı? Missiyası nə idi? Bu adamlar nə işlə məşğul olurdular ki, hələ utanmadan işlərinə davam etmək istəyirlər? Əslində, dövlətimizin başçısı, necə deyərlər, bu quruma və onun nümayəndələrinə bütün dünyanın gözü önündə yaşıca "qulaqburması" verib, başa salıb: Dağlıq Qarabağ münaqişəsi yoxdur ki, onu həll etməyə, nizamlamağa çalışan bir qurum da olsun. Əgər konkret bir təklifiniz, sülhün təmin edilməsi üçün bir ideyanız, fikriniz yoxdursa, ayaq altından çəkilin, qoyun işimizi görək.

Həqiqət isə ondan ibarətdir ki, bütün dünya Azərbaycanın yaratdığı reallıqları qəbul edir. İstər nüfuzlu beynəlxalq təşkilatlar, istərsə də dövlətlər ölkəmizin haqlı mövqeyini müdafiə edir, bu regionda artıq müharibə, təxribat, xaos istəmədiyini dilə gətirir. Əvvəlindən qatığa qara deyən ermənilər və onların havadarları isə indi yeni yalanlar üçün yeni rənglər axtarırlar. Ümid edirik ki, Ermənistan və onun dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən lobbiləri dünyanın artıq onların yalanlarına inanmadığı, hər kəsin bu iyrənc xislətdən bezdiyini anlayacaq. Bizim isə çəkinəcəyimiz heç bir şey yoxdur. Necə deyərlər, "iti görən çomağını hazır edər".

***İmran ƏLİYEV,***
***"Xalq qəzeti"***